UOT 338.43

*Aytəkin Məmməd qızı XƏLİLOVA*
*Bakı Dövlət Universitetinin doktorantı*

# AQRAR SAHƏDƏ İSTEHSAL SAHİBKARLIĞININ TƏŞKİLİNİN REGİONAL XÜSUSİYYƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** iqtisadi məktəblərin sahibkarlıq fəaliyyətinə dair nəzəri baxışlarına əsaslanaraq aqrar sahədə istehsalın iqtisadi fəaliyyət xarakteristikasına dair münasibətlər sistemini nəzərdən keçirmək, aqrar sahədə istehsal sahibkarlığının təşkilati-iqtisadi və regional xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – aqrar sahədə sahibkarlıq fəaliyyətinə dair nəzəri baxışlara, milli inkişaf proqramlarına dair normativ-hüquqi bazaya əsaslanmaqla müqayisəli təhlil, induksiya, deduksiya, qrafiki və tarixi yanaşma, ümumiləşdirmə kimi tədqiqat metodlarından istifadəyə əsaslanır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – aqrar sahədə sahibkarlıq fəaliyyətinin elmi-praktiki aspektlərinin tədqiq edilməsindən, müasir dövrdə istehsal sahibkarlığı sahəsində iqtisadi fəaliyyətin stimullaşdırılmasından və geniş təkrar istehsalın balanslaşdırılmasından ibarətdir.

**Tədqiqatın nəticələri** – kənd təsərrüfatı istehsalında sahibkarlıq fəaliyyətinin mövcud olan təşkilati-iqtisadi xüsusiyyətlərinə, fərdi sahibkarlıq subyektlərinin maddi-texniki bazasının formalaşması və təchizatına, bitkiçilik və heyvandarlıq məhsulları istehsalının təşkili və idarə olunmasına, istehsal resurslarından səmərəli istifadə olunmasına və dəyişən şəritlərdən asılı olaraq istehsalın strukturunun daima təkmilləşdirilməsinə, istehsal amilləri bazarında dövlət tənzimlənməsinə dair mülahizələrin əldə olunmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – nəzəri mənbələrdən, statistik məlumatlardan və analitik materiallardan ardıcıl və düzgün istifadə edilməsi baxımından tədqiqatın nəticələri orijinaldır, aqrar sahədə istehsal sahibkarlığının inkişafının regional xüsusiyyətlərinə təsir göstərən iqtisadi mexanizmlərdən istifadə olunmasına dair mülahizələr elmi yenilik xarakterlidir.

***Açar sözlər: istehsal sahibkarlığı, fərdi sahibkarlıq, aralıq və son məhsul, bazar mexanizmləri, dövlət mexanizmləri***

## *Giriş*

Aqrar sahədə istehsal sahibkarlığı dedikdə, gəlir əldə etmək məqsədilə proqnozlaşdırılması mümkün olmayan təbii-iqlim və müəyyən iqtisadi risklərə məruz qalmaqla, müstəqil olaraq məhsul istehsal etmək, xidmətlər göstərmək və ticarətlə məşğul olmaq başa düşülür. Ümumilikdə sahibkarlıq fəaliyyətini kəmiyyət və iqtisadi fəaliyyət xarakteristikalarına görə iki əsas qrupa bölmək olar. Kəmiyyət xarakteristikasına görə sahibkarlığı fərdi və kollektiv sahibkarlıq kimi iki qrupa ayırmaq olar. Kollektiv sahibkarklıq da öz növbəsində mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə ayrılır ki, bu da sahibkarlıq fəaliyyətləri ilə məşğul olan subyektlərə dövlət tərəfindən müvafiq maliyyə dəstəyi göstərmək üçün iqtisadi qanunların işlənməsində və tətbiq olunmasında resurslardan daha səmərəli istifadə edilməsinə hədəflənməkdədir.

İqtisadi fəaliyyət xarakteristikasına görə isə sahibkarlıq fəaliyyəti kommersiya və qeyri-kommersiya sahibkarlığı kimi iki qrupa bölünür. Kommersiya sahibkarlığı isə milli iqtisadi sistemlərin ən vacib resurslarla təmin olunma səviyyəsindən asılı olaraq istehsal, xidmət, maliyyə və ticarət sahibkarlıqları kimi təsnifatlaşdırıla bilər ki, bu da ayrı-ayrı coğrafi məkanlarda maddi və insan resursları ilə təminat səviyyələrindən asılı olaraq sahibkarlıq qabiliyyətləri kimi meydana çıxmaqdadır. Sahibkarlıq qabiliyyəti dedikdə, maddi və intellektual mülkiyyət sahiblərinin ictimai fəaliyyətin müəyyən sahəsində daha çox yararlı olması, müəyyən olunmuş kommersiya fəaliyyətinin daha səmərəli icra etməsi nəzərdə tutulur. Bu qabiliyyət bir tərəfdən sahibkarın fərdi davranış

xüsusiyyətlərindən, digər tərəfdən isə bu fəaliyyətləri əhatə edən iqtisadi mühit şəraitindən asılıdır ki, bu da müxtəlif təbii-iqlim şəraitlərinə malik olan iqtisadi rayonlarda fərqli gəlirlərə və sosial-iqtisadi nəticələrə səbəb olmaqdadır. Odur ki, qeyd olunan bu şəraitlərin müsbət nəticələrə gətirib çıxarması üçün bütün növ sahibkarlıq fəaliyyətləri səmərəli təşkil olunmalı və məqsədyönlü şəkildə yönəldilməlidir.

**İstehsal fəaliyyəti sahibkarlıq fəaliyyətinin əsası kimi**

Sahibkarliq qabiliyyəti bir tərəfdən müxtəlif səviyyələrdə həyata keçirilən təhsil prosesində əldə edilən iqtisadi, texnoloji biliklər və bacarıqlar vasitəsi ilə, digər bir tərəfdən də real iqtisadi fəaliyyət prosesində bu bilik və bacarıqlardan istifadə etməklə formalaşmağa başlayır ki, bu da müasir dövrdə maddi nemətlər və xidmətlərin yaradılması üçün istehsalın bütün digər amillərinin birləşdirilməsinə yönəldilmiş xüsusi növ insan kapitalı kimi meydana çıxmaqdadır. İnsan kapitalının ictimai həyatın müxtəlif sahələrində istifadə edilməsi sahibkarlıq fəaliyyəti kimi təqdim oluna bilər. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda qeyd olunduğu kimi “sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər götürülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir [1].

Tarixi inkişafın müxtəlif dövrlərində istehsal, bölgü, mübadilə və ticarət sistemində baş verən iqtisadi münasibətlərin təkmilləşdirilməsi, mülkiyyət sahibliyindən qaynaqlanaraq istehsal sahibkarlığından ticarət sahibkarlığına qədər uzun bir dövrü əhatə etməkdədir. İlk iqtisadi fikirlər hələ iqtisadi nəzəriyyə yaranana qədər, xeyli qədimdə insanların təsərrüfat fəaliyyəti ilə bağlı baxışlarında özünü göstərir. Hələ qədim zamanlarda hökmdarlara dövlətin idarə edilməsi haqqında tövsiyələr şəklində yazılmış əsərlərdə sərvətin toplanması, xəzinə toplanması və vergi, istehsal və ticarət haqqında baxışlar ilk iqtisadi fikirlərə aid edilə bilər. İqtisadi fikirlərin sonrakı inkişafına dair mülahizələr qədim Yunanıstan və Romada görkəmli filosoflar Ksenefont, Aristotel və digərlərinin əsərlərində rast gəlinir ki, bu əsərlərdə mübadilə, ticarət, qiymət, təsərrüfatın təşkili haqqında dəyərli fikirlər əks olunmuşdur.

Avropada və Şərqdə müxtəlif dini təlimlərdə, müqəddəs kitablarda mövcud olan mülahizələr iqtisadi fikirlərin formalaşması və inkişafında mühüm rol oynamışdır. İqtisadi biliklərin sistemləşdirilməsinə təşəbbüs göstərən merkantilist və fizokratlar məktəblərinin yaranması və inkişafı, sonralar klassik siyasi iqtisadın nümayəndələri A.Smit və D.Rikardonun əsərlərində iqtisad elminin formalaşmasına şərait yaratmışdır [2].

Qədim dünyada meydana gəlmiş iqtisadi fikirlərin öyrənilməsi və mənimsənilməsi bəşəriyyətin tarixi təkamülü, insan cəmiyyətinin təşəkkülü qədim dünyada meydana gələrək, minilliklər ərzində formalaşmış təbiət və cəmiyyət haqqındakı düşüncələr, fikirlər şifahi yollarla nəsillərdən-nəsillərə ötürülərək, müxtəlif səpkili əfsanələr, rəvayətlər, poeziyalar kimi ayrı-ayrı xalqların maddi və mənəvi mədəniyyətlərinə çevrilmişdir. İctimai əmək bölgüsünün meydana gəlməsi, istehsal vasitələrinin təsərrüfat həyatında müəyyənedici rola malik olması, fərdi əməyin nəticələrinin mülkiyyət sahibləri tərəfindən mənimsənilməsi prosesi ictimai istehsalın formalaşmasında feodal münasibətlərdən imtina olunmasına, iri sahibkar kapitalına əsaslanan inhisarçı təsərrüfatçılıq fəaliyyətlərinin yaranmasına şərait yaratmağa başladı.

Beləliklə, feodalizm cəmiyyətindəki torpaq mülkiyyətçilərinə və müxtəlif növlü muzdurlara xüsusi kapitala əsaslanan iqtisadi sistemdə, mənfəət götürmək məqsədilə məhsulu müəyyən qiymətə alaraq, bazarda özünə hələ də məlum olmayan qiymətə satmağa çalışan (deməli risk edən) yeni insanlar qrupu meydana gəlməyə başladı ki, ingilis iqtisadçısı R.Kantilyon (1680-1734) bu insanları sahibkar adlandırır. Onun fikrincə, sahibkarlıq xüsusi növ iqtisadi fəaliyyət növü olaraq, müxtəlif növ bazarlarda əmtəələrə olan tələb və təklif arasında uyğunluq yaratmağa çalışmaqdadır. Klassik iqtisadi məktəbin nümayəndəsi A.Smit (1723-1790) isə sahibkarı öz istehsalını planlaşdıran və təşkil edən, onun nəticələri üzərində müstəqil sərəncam verən, mənfəət götürmək məqsədilə bağlı hər hansı bir ideyanı reallaşdırmaq üçün risk edən mülkiyyətçi kimi səciyyələndirmişdir. Fransız iqtisadçısı J.B.Sey (1767-1832) sahibkarı risk etməsinə baxmayaraq, mənfəət götürmək

məqsədilə hər hansı bir məhsul istehsal edən şəxs kimi qələmə almışdı. O, sahibkarlıq mənfəətini təmin edən iqtisadi mühiti, yəni bazar mühitini ətraflı tədqiq etmişdir və mənfəət əldə etmək üçün sahibkarın yerinə yetirdiyi vəzifələrin yaradıcı xarakter daşıdığını qeyd etmişdir [2].

Fiziokratlar məktəbinin nümayəndəsi F.Kene öz tədqiqatlarında hər kəsin əməyinin nəticəsi olan azadlıq və mülkiyyət hüququnun tanınmasını irəli sürmüşdür. O, ictimai həyatımızı məhsuldar, qeyri-məhsuldar (qısır) və mülkiyyətçilər kimi üç sinifdən ibarət bir sistem hesab etmişdir. Xalis gəlir yaratmaqla cəmiyyətin bütün digər təbəqələrinin tələbatını ödəyən və torpağı becərənləri məhsuldar sinfə aid etmişdir. Onun fikrincə qeyri-məhsuldar (qısır) təbəqə yeni heç nə yaratmır, ancaq cəmiyyətin ehtiyaclarını ödəmək üçün birinci sinfin əldə etdiyi nemətləri özlərinə daha uyğun formada emal etməklə və istehlakçılara çatdırmaqla məşğuldurlar. Alimin hesab etdiyi kimi, mülkiyyətçilər sinfi heç bir dəyər yaratmır, yalnız əldə olunmuş xalis gəlirdən istifadə edirlər. O bununla kənd təsərrüfatı istehsalının vacibliyini qeyd edərək, mülkiyyətçilər sinfinin mövcudluğunu əsaslandırdı [3].

Digər iqtisadi məktəbin nümayəndələri də sahibkarlıq fəaliyyətini bu və ya digər dərəcədə tədqiq edərək, müasir dövrdə sahibkarlıq fəaliyyəti dedikdə təsərrüfat subyektlərinin mənfəət və ya şəxsi gəlir əldə etmək məqsədilə, özlərinin cavabdehliyi və əmlak məsuliyyəti əsasında, qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri üzrə həyata keçirdikləri təşəbbüskarlıq fəaliyyətinin nəzərdə tutulduğunu qeyd edirlər.

**Aqrar sahədə istehsal sahibkarlığının təşkilinin xüsusiyyətləri**

Sahibkarlıq fəaliyyəti mürəkkəb iqtisadi məzmuna malik olub, bir tərəfdən iqtisadi kateqoriya olmaqla bazar subyektləri arasında məhsul və xidmətlərin istehsalı, mübadiləsi, bölgüsü və s. kimi çoxsahəli iqtisadi münasibətləri özündə əks etdirirsə, digər tərəfdən sahibkarlıq səmərəli təsərrüfatçılıq tipi olaraq fərdi və ictimai tələbatlarımızın təmin olunmasında aktiv rol oynayır. Sahibkarlıq fəaliyyətinin subyekti hesab olunan sahibkar isə daha çox mənfəət əldə etmək üçün günügündən yenilənməkdə olan elmi-texniki tərəqqinin nailiyyətlərindən, əməyin və istehsalın təşkilinin mütərəqqi üsullarından istifadə edərək, öz seçimi əsasında həyata keçirməyə başladığı iqtisadi fəaliyyətin səmərəliliyini daima artırmağa çalışır ki, bu da mütərəqqi iqtisadi təfəkkürə əsaslanan sahibkarlıq fəaliyyətinin kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Mütərəqqi iqtisadi təfəkkürə malik olan sahibkarlar daima yenilənməkdə olan dövrün tələbatına uyğun olan məhsullar istehsal edir, daha mütərəqqi üsullarla xidmətlər göstərir, ictimai həyatın müxtəlif sahələrində qənaət rejiminə ciddi əməl edərək kommersiya sahibkarlığının müxtəlif növləri ilə məşğul olmaqla yanaşı, qeyri-kommersiya sahibkarlığı ilə də məşğul olaraq xeyriyyəçilik, ətraf mühitin qorunması və s. tədbirlərin keçirilməsində də aktiv iştirak edirlər.

İstənilən fəaliyyət sahəsində sahibkarlıq fəaliyyətinin zəruri şərti iqtisadi azadlığın olmasından ibarət olsa da, bir sıra obyektiv və subyektiv şəraitlərdən asılı olaraq aqrar sahədə bu azadlıqlar məhdudlaşa bilər. Aqrar sahədə sahibkarlıq subyektlərinin iqtisadi azadlıqları dedikdə malik olduqları maddi, maliyyə və insan kapitalından ibarət olan iqtisadi resurslardan necə istifadə etmək, habelə istehsal olunmuş bitkiçilik və heyvandarlıq məhsulları üzərində sərbəst surətdə sərəncam vermək azadlığı nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, müxtəlif iqtisadi fəaliyyət sahələrində iqtisadi azadlıqlar sonsuz olmadığı kimi, aqrar sahədə bu azadlıqlar nisbətən məhduddur.

Belə ki, bir tərəfdən kəndli təsərrüfatları torpaq, əsas istehsal fondlarını formalaşdıran maddi-texniki resurslar, məhsuldar mal-qara, təsərrüfatdaxili tikililər və s. obyektlər üzərində mülkiyyət sahibliyinə malik olsalar da, istehsal olunan məhsulların istehlakçılara çatdırılmasına qədər olan və dəyər zəncirini formalaşdıran logistik fəaliyyətlər, emal və ticarət fəaliyyətlərində yeni dəyərin yaradılmasına adekvat olan mülkiyyət sahibliyinə malik deyildirlər. Kəndli təsərrüfatları kapital resurslarından istifadə edərək məhsul istehsal etmək, xidmətlər göstərmək və sair iqtisadi fəaliyyətlərlə məşğul olmaqda müstəqil olsalar da, daha çox gəlir əldə etmək imkanı yaradan bəzi aralıq və son məhsulların istehsalında iştirak edərək, tələb, təklif və qiymət kimi vacib bazar maxanizmlərindən yararlanaraq mənfəət normasından artıq gəlirdən istifadə edmək imkanlarından məhrumdurlar.

Müxtəlif iqtisadi fəaliyyət növləri üzrə mövcud olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 2020-ci ildə 316,4 min ədəd təşkil etmişdir ki, bunların da 3,3 mini, yaxud da 1,04%-ə qədəri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyətlərinin payına düşür. Məşğul əhalinin 38%-ə qədərinin kənd təsərrüfatı sahələrində cəmləşməsinə baxmayaraq, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin 32,8%-i ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində yer almışdır ki, bu da məqbul sayıla bilməz. Bütün iqtisadi fəaliyyət növləri üzrə mövcud olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 2019-cu illə müqayisədə 2020-ci ildə 16,6% artdığı halda, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyətləri üzrə müvafiq göstərici 2,3%-ə qədər azalmış, ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində isə 22,3%-ə qədər artmışdır [4].

İstehsal fəaliyyətinin ayrı-ayrı sahələrində olduğu kimi, kənd təsərrüfatı istehsalının təşkilində də bazar iqtisadiyyatının ümumi qanunauyğunluqları fəaliyyət göstərir. Bu qanunauyğunluqların bir çoxu kənd təsərrüfatının özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq tətbiq olunur ki, bu da bitkiçilik və heyvandarlıq məhsulları istehsalı ilə emal, ticarət və infrastruktur fəaliyyəti sahələri arasındakı fərqləndirici cəhətlərlə izah olunur. Bazar iqtisadiyyatının tələb, təklif və rəqabət kimi əsas qanunauyğunluqları bitkiçiklik və heyvandarlıq məhsullarının satış bazarlarında tam rəqabətli şəraitlərdə həyata keçirilirsə, istehsal amillərini formalaşdıran maşınlar, avadanlıqlar, mexanizmlər, yanacaqlar, gübrələr və s. kimi istehsal amilləri bazarının fəaliyyəti isə inhisarçı bazar olaraq fəaliyyət göstərməkdədir. Texniki bitkilər istehsalından əldə olunan pambıq, tütün, çay və s. məhsulların satış bazarı tək alıcının emal müəssisələrindən ibarət olduğu inhisarçı bazar, yəni manopsoniya şəraitində fəaliyyət göstərməkdədirlər.

Statistik məlumatların təhlilindən göründüyü kimi, torpaq üzərində isə mülkiyyət hüquqları qeyri-stabil olaraq dəyişikliyə məruz qalmaqdadır və fərdi sahibkarlıq təsərrüfatlarının mülkiyyətində olan torpaqların həcmi 2015-2021-ci illər ərzində 32 min hektardan 12 min hektara, yaxud da 62,5%-ə qədər azalmışdır. Bunun əksinə olaraq fərdi sahibkarlıq təsərrüfatları tərəfindən icarəyə götürülmüş torpaqların həcmi müqayisə olunan dövrdə 20 min hektardan 30 min hektara qədər artmışdır. Bu isə torpaqların inhisarlaşması ilə bağlı olaraq, istifadəcilərlə icarə münasibətlərinin yaranmasına şərait yaratmışdır. Fərdi sahibkarlıq təsərrüfatlarına məxsus kənd təsərrüfatına yararlı torpaqların həcmində müşahidə olunan dəyişikliklər də 2019-cu ildən başlayaraq müəyyən artımlarla müşayiət olunmaqdadır (Şəkil 1).




***Şəkil 1. Fərdi sahibkarlıq təsərrüfatlarına məxsus olan torpaq sahələri, ha.***

Bitkiçilik məhsulları istehsalının digər fərqləndirici cəhətlərindən biri isə ondan ibarətdir ki,

burada əsas istehsal vasitəsi kimi torpaqdan istifadə olunur. Pambıq, tütün, çay, texniki üzüm istehsalı ilə məşğul olan fərdi sahibkarlıq subyektləri istehsal etdikləri məhsulları müvafiq emal müəssisələri üçün xammal olaraq satmağa məcburdurlar və satış bazarında tam müstəqil qərar qəbul etməkdən məhrumdurlar. Emal müəssisələrinin isə əldə etdikləri son və aralıq məhsuların istehsalında fərdi kəndli təsərrüfatları əsas iştirakçı olsalar da, satışdan əldə olunan yüksək gəlirlərdən məhrumdurlar.

Digər bitkiçilik məhsulları ilə müqayisədə texniki bitkilərin istehsalı 3-4 dəfə gəlirli olsa da, 1990-2010-cu illər ərzində adı çəkilən texniki bitkilərin istehsalında baş verən kəskin azalmalar məhz gəlirlərdə yaranmış kəskin fərqlərlə əlaqədar olmuşdur. Bunun da təsirindən torpaqlardan istifadənin səmərəliliyi qeyri-stabil olaraq müşahidə olunmuşdur.




*Şəkil 2. Fərdi sahibkarlıq təsərrüfatlarının yararlı torpaqları və əkin sahələri, ha.*

Fərdi sahibkarlıq təsərrüfatlarının kənd təsərrüfatına yararlı torpaqlardan istifadə dinamikası əsasən əkin yerlərinin istehsal məqsədləri üçün istifadəsinə əsaslanmaqla formalaşmaqdadır [5]. Torpaqların fiziki və kimyəvi xüsusiyyətləri müxtəllif iqtisadi rayonlarda fərqlidir ki, bu da fərqli maddi və maliyyə xərcləri tələb edərək müxtəlif istehsal məqsədləri üçün səmərəli hesab oluna bilər. Müxtəlif iqtisadi rayonlarda təbii-iqlim şəratiləri fərqlidir və buna uyğun olaraq müvafiq bitkiçilik məhsullarının istehsalına zərurət yaransa da, istehsala yaranan maraqlar müxtəlif bölgələrdə fəaliyyət göstərən emal, tədarük, satış və digər infrastruktur sahələri ilə qurulacaq təşkilati-iqtisadi əlaqələrdən asılı olmaqdadır. İqtisadi rayonlar üzrə fərdi sahibkarlıq təsərrüfatlarına məxsus olan kənd təsərrüfatına yararlı torpaq sahələrinin ən çox hissəsi - 18,2%-ə qədəri Dağlıq Şirvan, 13,9%-ə qədəri Mərkəzi Aran, 13,4%-ə qədəri Şirvan-Salyan, 10,5%-ə qədəri isə Gəncə-Daşkəsən, iqtisadi rayonlarının payına düşür (Şəkil 3). Orta hesabla bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi 2021-ci ildə 45,6 hektar təşkil etmişdir və 2015-ci illə müqayisədə 1,3 dəfə çoxdur ki, bu da fərdi sahibkarlıq təsərrüfatlarının təmərküzləşmə səviyyəsinin artması ilə əlaqədardır. Bütün bunlara baxmayaraq, müqayisə olunan dövrdə ölkə üzrə satılmış bitkiçilik məhsullarının rentabelliyi artmamış, əksinə 37,8%-ə qədər azalmışdır. Naxçıvan Muxtar Respublikasında isə müvafiq göstərici 16,5% artaraq 224,6% təşkil etmişdir ki, bu da ölkə üzrə kənd təsərrüfatı istehsalının səmərəliliyinin artırılması üçün hələ də tam istifadə olunmamış torpaq, məhsuldar mal-qara və bu kimi potensial resurs ehtiyatlarının olmasından xəbər verir [6].




***Şəkil 3. İqtisadi rayonlar üzrə fərdi sahibkarlıq təsərrüfatlarına məxsus olan k/t-na yararlı torpaq sahələri, %.***

Bunlardan başqa kənd təsərrüfatında istehsal vasitəsi rolunda iştirak edən heyvanlar və bitkilər aləmi kimi canlı orqanizmlərdən qarşılıqlı əlaqədə və asılılıqda istifadə olunması tələb olunur. Heyvandarlıq məhsulları istehsalının ən fərqləndirici cəhətlərindən biri isə ondan ibarətdir ki, əsas istehsal vasitəsi kimi iribuynuzlu, xırdabuynuzlu və digər növ heyvan növlərindən və cinslərindən istifadə olunur. Bitkiçilik və heyvandarlıq məhsulları istehsalının hər ikisi bioloji qanunlar əsasında fəaliyyət göstərir və inkişaf edir ki, bu da digər resurslardan istifadə zamanı fərqli tələbatlar formalaşdırır. Kənd təsərrüfatında təkrar istehsalın iqtisadi prosesləri canlı orqanizmlərin təbii inkişaf prosesi ilə üst-üstə düşdüyündən əmək və maliyyə resurslarından istifadə şəraitlərinə yeni tələblər irəli sürür və nəticədə əlavə xərclərə şərait yaranır. Kənd təsərrüfatı məhsullarının istehsalı böyük əraziləri əhatə etməklə müxtəlif təbii-iqlim şəraitlərində həyata keçirilir ki, bu da fərqli maddi, maliyyə və insan resurslarına tələbi artırır.

Kənd təsərrüfatı istehsalında son nəticələr çox vaxt konkret təbii-iqlim şəraitindən asılı olduğuna görə, ayrı-ayrı iqtisadi rayonlarda istehsalın ərazi xüsusiyyətlərinin nəzərə alınaraq yerləşdirilməsini tələb edir. Bu da fərdi sahibkarlar tərəfindən istehsalata yönəldilən maddi, maliyyə və insan resurslarının kəmiyyətinə və çeşidinə öz təsirini göstərərək, xərclərin miqdarına uyğun qərarların qəbul edilməsini zəruriləşdirir. Fərdi sahibkarlar tərəfindən kənd təsərrüfatı istehsalının iqtisadi rayonlar üzrə seçilməsi həm istehlakçıların coğrafı məskunlaşma şəraitlərinin, həm də əldə olunacaq məhsulların istehsalında istifadə olunacaq maddi-texniki və insan resursları ilə təmin olunması imkanlarının gözlənilməsini zəruri edir.

Ölkədə fərdi sahibkarlıq subyektləri üzrə ayrı-ayrı kənd təsərrüfatı məhsullarının maya dəyəri göstəriciləri fərqli dəyişikliklərlə müşayiət olunmaqdadır. 2015-ci il üzrə xam pambığın bir sentnerinin maya dəyəri dənli bitkilərin bir sentnerinin maya dəyərindən 3 dəfədən çox olduğu halda, 2015-ci ildə bu göstərici 1,6 dəfəyə qədər azalmışdır. Bununla yanaşı, südün hər sentnerinin maya dəyəri xam bambıqla müqayisədə 10%-ə qədər çox olmuşdur ki, bu da 2015-ci illə müqayisədə 33,4% çoxdur (Şəkil 4). Qeyd olunan bu məhsulların hər sentnerinin satış qiymətləri isə daha stabil artım dinamikası ilə müşahidə olunmuşdur. Dənli bitkilərin hər sentnerinin satış qiyməti 1,76 dəfə, xam pambığın hər sentnerinin satış qiyməti 1,61 dəfə artdığı halda, südün hər sentnerinin satış qiyməti 1,3 dəfə artmışdır ki, bu da heyvandarlıq sahələrində aşağı gəlirliliklə müşahidə olunaraq, bu sahəyə göstərilən maliyyə dəstəyinin zəifliyi ilə əlaqələndirilə bilər (Şəkil 5).




***Şəkil 4. Fərdi sahibkarlıq təsərrüfatları üzrə maya dəyəri göstəriciləri.***




***Şəkil 5. Fərdi sahibkarlıq təsərrüfatları tərəfindən satılan məhsulların qiyməti.***

Kənd təsərrüfatı istehsalında sahibkarlıq fəaliyyətinin vacib xüsusiyyətlərindən biri odur ki, burada yaradılan məhsulların bir qismi ailə üzvlərinin və orada müzdla çalışanların son istehlakına, bir qismi isə təsərrüfatdaxili növbəti istehsal mərhələlərində istifadə olunur. Fərdi təsərrüfatlarda istehsal olunan taxılın, kartofun və tərəvəzlərin bir qismi toxum kimi, bitkiçilikdən alınan dən, ot və saman məhsuldar və işçi heyvanların yemlənməsi üçün, iribuynuzlu və xırdabuynuzlu malqaradan alınan südün bir hissəsi buzovların yemlənməsi üçün, quşçuluqdan alınan yumurtanın bir qismi inqubasiyada istifadə üçün, təsərrüfatda yetişdirilən cavan mai-qaranın bir hissəsi isə məhsuldar mal-qaranın baş sayının bərpa olunması üçün istifadə edilir. Bütün bunlar təsərrüfatlarda istifadə olunan əsas və dövriyyə fondlarının formalaşdırılmasına şərait yaradır ki, bunun üçün isə əlavə material və maliyyə resursları tələb edərək, əmtəə məhsullarının satış qiymətləri vasitəsi kompensasiya edilməkdədir.

Digər tərəfdən fərdi sahibkarlıq subyektləri kənd təsərrüfatı istehsalı üçün müxtəlif tikililərin, mal-qara üçün tövlələr, yem, toxum və əkin materialları saxlamaq üçün anbarlar və soyuducu kameraların əldə olunması üçün əlavə xərclər tələb olunur. Bu xərclərin qarşılanması üçün isə təsərrüfat subyektləri qısa və uzunmüddətli borc vəsaitlərindən istifadə etmək məcburiyyətində qalaraq,

əlavə gəlir mənbələri axtarışında olmaqdadırlar. Gəlir əldə etməyin isə yeganə yolu istehsal məhsullarına çevik topdan və pərakəndə satış qiymətləri tətbiq etməklə, maliyyə mənbələrindən qənaətlə və səmərəli yararlanmaq tələb olunur.

Kənd təsərrüfatı istehsalı mövsümiliyi ilə diqqəti cəlb edir ki, bu da istehsalın təşkilinə, texniki avadanlıqlardan, maşın və mexanizmlərdən intensiv istifadə edilməsinə, əmək və maliyyə resurslarından səmərəli istifadə olunmasına və son hesabda bütövlükdə bu sahənin səmərəliliyinə mənfi təsir göstərir. Bununla əlaqədar olaraq, nəticədə kənd təsərrüfatı istehsalında əməyin ixtisaslaşma səviyyəsi aşağı düşür, emal sənayesi, xidmətlər, ticarət və digər infrastruktur fəaliyyətləri ilə əlaqələr zəifləyir. Kənd təsərrüfatında torpaq, əmək və material resurslarından rasional istifadə etmək məqsədilə bitkiçilik ilə heyvandarlıq sahələrinin optimal əlaqələndirilməsi iqtisadi rayonların ənənəvi istehsal fəaliyyətlərinə uyğun olaraq, ardıcıl inkişaf etdirilməli və buna müvafiq olaraq konkret ərazilərdə spesifik şəraitlər nəzərə alınmalı, yardımçı təsərrüfatların inkişaf etdirilməsinə şərait yaradılmalıdır.

### *Nəticə*

Müxtəlif fəaliyyət sahələrindən fərqli olaraq, kənd təsərrüfatı istehsalıda mövcud olan təşkilati-iqtisadi xüsusiyyətlər fərdi sahibkarlıq subyektlərinin maddi-texniki bazasının formalaşması və təchizatında, bitkiçilik və heyvandarlıq məhsulları istehsalının təşkili və idarə olunmasında, istehsal resurslarından səmərəli istifadə olunmasında nəzərə alınmalı və dəyişən şərtlərdən asılı olaraq daima təkmilləşdirilməlidir. Kənd təsərrüfatında əmtəə istehsalının inkişafı bazar münasibətlərinin zəruriliyini və özünəməxsus tənzimləmə metodlarını ortaya qoymaqdadır ki, bu da məhsul istehsalçıları ilə aralıq və son istehlakçılar arasında əmtəə istehsalı və tədavülü qanununa əsaslanmaqla mübadilə olunur. Mübadilə prosesində bazar istehsalçılarla istehlakçılar arasında sistemli qaydada fəaliyyət göstərsə də, istehsal amilləri bazarında dövlət təchizat orqanları vasitəsi ilə tənzimlənərək aparıcı rol oynamaqdadır.

### ƏDƏBİYYAT


1. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 15 dekabr 1992-ci il, https://e-qanun.az/framework/7920
2. İqtisadi fikrin ilk nəzəri istiqamətləri, https://azkurs.org/iqtisadi-fikrin-ilk-nezeri-istiqametleri.html
3. Краткие биографические сведения Франсуа Кенэ, https://spravochnick. ru/ekonomika/fransua_kene_francuzskiy_ekonomist_osnovopolozhnik_shkoly_fiziokratov/
4. Azərbaycanda sahibkarlıq, https://stat.gov.az/source/entrepreneurship/
5. agricultural_e-p-o_2022.zip - ZIP archive, unpacked size 4 940 196 bytes, səh.28
6. agricultural_e-p-o_2022.zip - ZIP archive, unpacked size 4 940 196 bytes, səh.278



***Айтекин Мамед кызы Халилова***
***Докторант Бакинского Государственного Университета***


## Региональная характеристика организации производственного предпринимательства в сельскохозяйственной сфере

### *Резюме*


**Цель исследования** - рассмотреть систему отношений по поводу особенностей экономической деятельности производства в аграрной сфере, исходя из теоретических взглядов экономических школ на предпринимательскую деятельность и определить организационно-экономические и региональные особенности производственного предпринимательства.

**Методология исследования** - основана на использовании таких методов исследования, как сравнительный анализ, индукция, дедукция, графико-исторический подход, обобщение на основе теоретических взглядов на предпринимательскую деятельность в аграрной сфере, нормативно-правовой базы национальных программ развития.

**Прикладное значение исследования** - состоит в изучении научно-практических аспектов предпринимательской деятельности в аграрной сфере, моделировании хозяйственной деятельности в сфере производственного предпринимательства в современном времени, сбалансировании экстенсивного воспроизводства.

**Результаты исследования** - существование организационно-экономической особенности предпринимательской деятельности в сельскохозяйственном производстве, формирование и обеспечение материально-технической базы индивидуальных субъектов предпринимательства, организация и управление производством продукции растениеводства и животноводства, эффективное использование ресурсов производства и изменяющихся в зависимости от него условий, которое состоит в постоянном совершенствовании структуры производства, получении заключений по государственному регулированию рынка факторов производства.

**Оригинальность и научная новизна исследования** - с точки зрения последовательного и корректного использования теоретических источников, статистических данных и аналитических материалов результаты исследования являются оригинальными, асоображения по использованию экономических механизмов, влияющих на региональные особенности развития производственного предпринимательства в аграрной сфере носят характер научной новизны.

***Ключевые слова: производственное предпринимательство, индивидуальное предпринимательство, промежуточный и конечный продукт, рыночные механизмы, государственные механизмы.***

***Aytekin Mammad Khalilova***
***Doctoral student of Baku State University***

## Regional characteristics of the organization of manufacturing entrepreneurship in the agricultural sphere

***Summary***

**The purpose of the study**-is to consider the system of relations regarding the features of the economic activity of production in the agrarian sector, based on the theoretical views of economic schools on entrepreneurial activity, and to determine the organizational, economic and regional features of industrial entrepreneurship.

**The research methodology**-is based on the use of such research methods as comparative analysis, induction, deduction, graphic-historical approach, generalization based on theoretical views on entrepreneurial activity in the agricultural sector, the legal framework of national development programs.

**The applied importance of the research is to study-**the scientific and practical aspects of entrepreneurial activity in the agricultural sector, modeling economic activity in the field of industrial entrepreneurship in modern times, and balancing extensive reproduction.

**The results of the study**-are the existing organizational and economic features of entrepreneurial activity in agricultural production, the formation and provision of the material and technical base of individual business entities, the organization and management of the production of crop and livestock products, the efficient use of production resources and conditions that change depending on it, which consists in a constant improving the structure of production, obtaining opinions on state regulation of the market for factors of production.

**The originality and scientific novelty of the study** - in terms of the consistent and correct use of theoretical sources, statistical data and analytical materials, the results of the study are original, considerations for the use of economic mechanisms that affect regional features of the development of industrial entrepreneurship in the agricultural sector are of scientific novelty.

***Key words: industrial entrepreneurship, individual entrepreneurship, intermediate and final product, market mechanisms, government mechanisms.***